# Parlament seçkiləri ölkəmizdə demokratiyanın dönməz xarakter aldığını bir daha təsdiqləyəcək





***Azərbaycan mühüm siyasi fəallıq mərhələsinə qədəm qoyub. Belə ki, fevralın 9-da Milli Məclisə seçkilər keçiriləcək. Parlamentdə seçicilərini təmsil etmək istəyən namizədlərin say çoxluğu da siyasi fəallığın yüksək olduğunu təsdiqləyir. Seçkiöncəsi mühit, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, bütün namizədlərə yaradılmış bərabər şərait seçki prosesinin tam demokratik və şəffaf, eyni zamanda, mövcud qanunvericiliyə uyğun şəkildə keçiriləcəyindən xəbər verir. Seçicilər əmindirlər ki, beynəlxalq müşahidəçilərin də izləyəcəyi bu seçkilərdə qanunvericilik orqanında layiqli namizədlərin təmsil olunması üçün beynəlxalq standartlara uyğun demokratik və şəffaf şərait yaradılıb.***

Seçki sistemi demokratiyanın əsas göstəricisi sayılır. Siyasi müstəqilliyini bərpa etdikdən sonra demokratik inkişaf yolunu seçən Azərbaycanda da seçki sisteminin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi, cəmiyyətin bütün zümrələrinin baxışlarını təmin etməsi və maraqlarına cavab verməsi strateji vəzifə hesab edilmişdir. Buna görə də, təsadüfi deyil ki, Azərbaycanda seçki sisteminin hərtərəfli inkişaf etdirilməsi istiqamətində və plüralist əsaslarla prezident, parlament, bələdiyyə seçkiləri keçirmək üçün beynəlxalq normalara cavab verən qanunvericilik bazası yaradılmışdır. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun iştirakı ilə hələ 2000-ci ildə seçki komissiyalarının tərkibi paritet əsaslarla formalaşdırılmışdır. Yaradılmış mövcud qanunvericilik bazası demokratik, azad, şəffaf və plüralist əsaslarla yüksək səviyyədə seçkilər keçirməyə imkan verir. Buna görə də, qarşıdakı seçkilərdə vətəndaşlarımızın mütləq əksəriyyətinin öz səsvermə hüququndan istifadə edəcəyi gözlənilir. Azərbaycan seçiciləri yüksək fəallıq nümayiş etdirməklə ölkənin həyatında bu çox mühüm siyasi kampaniyaya böyük maraq və diqqət göstərdiklərini sübut edəcəklər.

mütərəqqi islahatlar həyata keçirilmiş və bu sahədə mühüm nailiyyətlər qazanılmışdır. Zəngin demokratiyanın mövcud olduğu ölkələrin təcrübələrini öyrənərək, daha mükəmməl hüquqi bazanın yaradılmasına nail olunmuş Azərbaycanda beynəlxalq standartlara uyğun və şəffaf seçkilərin keçirilməsi artıq ənənə halını almışdır. Məhz mükəmməl qanunvericilik bazasının və icra mexanizmlərinin yaradılması nəticəsində Azərbaycan vətəndaşının dövlət orqanlarına seçmək və seçilmək kimi Konstitusiya hüquqları təmin edilmişdir. Azad və şəffaf seçkilərin keçirilməsi də insan hüquq və azadlıqlarının təmin olunmasında mühüm amil kimi qiymətləndirilir. Azərbaycan dövlətinin bu amilə hər zaman yüksək diqqət ayırması və zəruri inzibati və hüquqi islahatlar həyata keçirməsi ölkədə seçki prosesinin demoktatikliyinin daim artmasına şərait yaratmışdır. Danılmaz bir həqiqətdir ki, azad və ədalətli seçkilərin keçirilməsi həmişə dövlət rəhbərliyinin prinsipial möv-qeyi olmuşdur və indiyədək keçirilmiş seçkilərin yüksək səviyyəsi məhz belə deməyə əsas verir.

Bu dəfə də Azərbaycan dövləti seçkilərin yüksək səviyyədə keçirilməsini prioritet vəzifə hesab edir və bu məqsədlə ölkədə zəruri hüquqi şərait formalaşdırılmışdır. Bunu namizədlərin qeydə alınması ilə bağlı yaradılmış şərait də təsdiqləyir. Belə ki, fevralın 9-da keçiriləcək seçkilərdə iştirak etmək istəyən şəxslərin namizədliklərinin irəli sürülməsi və qeydiyyatı ilə bağlı prosedur zamanı bütün əsas demokratik prinsiplərə hörmət olunur. Builki parlament seçkilərində iştirak etmək üçün indiyədək müraciət edən 2330 nəfərdən 2203-nün namizədliyinin təsdiq olunması belə deməyə əsas verir. Seçkilərdə gənclər fəallığı ilə seçilirlər. Mütəxəssislər gənclərin, ümumiyyətlə, bütün vətəndaşların fəallığını cəmiyyətdə cərəyan edən proseslərə biganə olmamaları ilə əlaqələndirirlər. Bundan başqa, bu, həm də onu göstərir ki, Azərbaycanda demokratik cəmiyyət formalaşmışdır və hər bir şəxsin fikrini azad bildirmək imkanı mövcuddur. Bu, bir həqiqətdir ki, Azərbaycan vətəndaşları, eləcə də gənclər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurla həyata keçirilən demokratik prosesləri, hərtərəfli islahatları birmənalı olaraq dəstəkləyirlər. Gənclər bu prosesdə fəal iştirak edərək Azərbaycanın daha da güclənməsi, xalqımızın rifah halının durmadan yaxşılaşdırılması işinə öz müsbət töhfələrini verirlər.

Məlumdur ki, seçki prosesinin mühüm mərhələlərindən olan seçkiqabağı təşviqat prosesi xüsusilə diqqətdə saxlanılır. Təşviqat subyektlərinə azad seçkiqabağı təşviqatlarını aparmaları üçün bərabər əsaslarla hər cür şərait yaradılır. İlk növbədə hər bir seçki məntəqəsində namizədlərin təşviqat materialları üçün böyük ölçülü lövhələr quraşdırılır. Seçicilərlə görüş və yığıncaqlar keçirilməsi üçün Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq yerli icra hakimiyyətləri tərəfindən respublikadakı bütün yaşayış məntəqələrində kifayət qədər açıq və qapalı görüş yerləri ayrılır və ödənişsiz əsasla hüququ olan şəxslərin ixtiyarına verilir. Bütün bunlarla yanaşı, seçkiqabağı təşviqat zamanı namizədlərə, siyasi partiyalara, siyasi partiyalar bloklarına və referendum üzrə təşviqat qruplarına daha geniş imkanlar və ədalətli mübarizə şəraiti yaratmaq məqsədilə müvafiq subyektlərə seçiciləri öz platforma və proqramları ilə tanış etmək üçün İctimai televiziya və radioda pulsuz efir vaxtı ayrılır. Həmçinin, müvafiq KİV-lər tərəfindən bərabər şərtlərin təmin olunması MSK-nın diqqət mərkəzində saxlanılır. Qarşıdakı parlament seçkilərində namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına KİV-də ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq. İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Xalq qəzeti", “Azərbaycan” və "Bakinski raboçi" qəzetlərində namizədlər seçicilərinə proqram və planları barədə məlumat vermək imkanı qazanacaqlar.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanda demokratik, azad, şəffaf

Ən əsası, Azərbaycan xalqının iradəsini əks etdirəcək 9 fevral seçkiləri ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesinin dönməz xarakter aldığını bir daha təsdiqləyəcək.

Bir sözlə, 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrilmiş, ölkədə demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyəti quruculuğunun, o cümlədən seçki sisteminin ildən-ilə təkmilləşdirilməsinin əsasını qoymuşdur. Demokratik və şəffaf seçki keçirməyə qadir olan Azərbaycanda daxili siyasi vəziyyət, ayrı-ayrı seçki institutlarının mövcudluğu, seçkilərdə iştirak edən, seçən və seçilən insanların hüquqlarının qorunması bunu deməyə əsas verir. Yaradılmış qanunvericilik bazası təsdiq edir ki, Azərbaycan seçkilərin şəffaflığının təmin olunması üçün istənilən mütərəqqi və ən yeni üsulları tətbiq etməyə hazırdır. Hamı 9 fevral parlament seçkilərində bu reallığı bir daha müşahidə edəcək.

**Səbuhi MƏMMƏDOV,**
**“Xalq qəzeti”**